# *BAĞ*

Qoca qarı filirli-fikirli özü kimi qocalıb əldən düşmüş ağaclara baxırdı. Qurumuş budaqlar onun əsən barmaqlarına bənzəyirdi. Səsə fikirdən ayıldı. Bir dəstə adam ona tərəf gəlirdi.

Qarı adamların içindəki gülərüz, ucaboylu, xoş və doğma sifətli adamı tanıdı. Amma gözlərinə inanmadı. Heydər Əliyev gəlib düz onun qənşərində dayandı. Əlini uzadıb qadının damarları çıxmış əllərini yavaşca sıxdı. Qadına elə gəldi ki, onun əlləri isindi…

— Niyə tək-tənha oturmusan burada? — soruşdu rəhbər.

- Gəlişinə qurban olum, oğul, — qarı ayağa durub rəhbərin əllərindən öpmək istədi. Rəhbər buna qıymadı. Onu saxladı.

— Bu bağ niyə belə günə düşüb? Baxa bilmirsən nədir?

- Qurban olum, kişim rəhmətə gedib. Oğlum da Qarabağ müharibəsində şəhid olub. Qalmışam tək. Bağ da baxımsızlıq ucbatından qurudu. Ağaclar da mənim kimi baxımsız və tənha qaldılar...

Rəhbər onu sinəsinə sıxdı. Alnından bir oğul, bir rəhbər, bir ata kimi öpdü.

— Sən tək deyilsən. Bütün Azərbaycan oğulları sənin övladlarındır.

Sonra yanındakılara göstəriş verdi:

— Bu ananı da, bu bağı da sizə tapşırıram. Səhər gəlib hamımız bu bağda ağac əkməliyik. Anaya nə lazımsa kömək edin. Ağac əkməyə mən də gələcəyəm.

Bir nəfər, görünür şəhər rəhbəri idi. Utana-utana dedi:

— Yoldaş Əliyev! Bağışlayın. Hər şeyi yoluna qoyarıq. Amma səhər Siz əziyyət çəkməyin. Biz özümüz ağac əkərik. Sizin o qədər işiniz var ki...

— Yox, yox! Hökmən gələcəm. Ağac əkib bağ salmaq da elə dövlət işidir... Bir şəhid anasına qayğı göstərmək dövlətin vəzifə borcudur...

***Məmməd Namaz***

***Günəş ömürlü insan. – B.: Təhsil, 2012. – S.7-9.***